# “Modern texnologiyalar festivalından aldığımız təəssürat zəngindir”



***“TEKNOFEST Azərbaycan” festivalı Azərbaycanla Türkiyənin elmi-texniki tərəqqi imkanlarının dünyaya göstərilməsi baxımından önəmli bir tədbirdir. Festivalın çeşidli komponentlərini təşkil edən müsabiqələr, kubok oyunları, sərgilər, hava şouları, konsertlər və əyləncə attraksionlarının dörd gün ərzində möcüzəli təsiri ilə qəlbləri oxşayacağı şəksizdir.***

Bu fikirləri Bakıda start götürmüş “TEKNOFEST Azərbaycan” Aerokosmik və Texnologiya festivalının izləyicisi, Masallı Dövlət Regional Kollecinin direktoru Vidadi Nəzərov “Xalq qəzeti”nə müsahibəsində bildirdi.

O dedi ki, texnofest tədbirləri dünyada texnologiya yenilikləri, elm, idrak imkanı yarışmaları, dostluq və əməkdaşlıq münasibətləri kontekstində keçirilən müasir və modern təfəkkürlərin sərgilənməsi baxımından maraq doğurur. İlk dəfə dörd il əvvəl İstanbulda keçirilib və Türkiyədə milli texnologiya hərəkatı adını qazanıb. Azərbaycan 2021-ci ildə dördüncü analoji festivalda iştirak edib. Bu dəfə mötəbər tədbirin məhz Bakıda təşkili qürur doğurur.

“Festivalın sərgi hissəsinin Azərbaycan Milli Pavilyonunda AMEA-nın elmi tədqiqatlarının nəticəsi olan rəqabətədözümlü, intellektual texnoloji məhsullarının nümayişi maraq yaradır. Orada, həmçinin 11 yerli şirkət və startapın məhsul və həlləri sərgilənib. Hava şoularında Azərbaycan Hərbi Hava Qüvvələrinin peşəkar pilotları "MiQ-29" qırıcı təyyarələri ilə solo pilotaj uçuşları həyata keçiriblər. Onların məharəti heyrətamizdir”.

Müsahibimiz sonra qeyd etdi ki, festival ilk növbədə Azərbaycanla Türkiyənin ən qabaqcıl sənaye və texnoloji nailiyyətlərinin sərgilənməsi baxımından mühüm önəm daşıyır. “Smart Qarabağ” hakatonu buna misal ola bilər. Bu müsabiqənin keçirilməsinin Azərbaycan üçün xüsusi əhəmiyyəti var, çünki hazırda 30 illik işğaldan azad edilmiş ərazilərimizdə “ağıllı şəhər” və “ağıllı kənd” layihələri həyata keçirilir. Ümumilikdə, bu modern konsepsiyaları daha yaxşı başa düşmək istəyən ictimaiyyət üçün imkan yaradılır ki, müvafiq optimallaşma səylərinin, innovativ layihələrin mahiyyətini dərindən əxz edə bilsin.




“Eyni zamanda, qeyd etmək lazımdır ki, Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələri pilotsuz uçuş aparatlarından məharətlə istifadə ediblər. Ordumuz arsenalında olan müasir silahları tətbiq etməklə döyüşlərin ilk saatından başlayaraq, düşmənə ağır zərbələr endirib. Düşmənin çoxlu sayda texnikasını, artilleriya sistemini, ilk olaraq hava hücumundan müdafiə sistemini sıradan çıxarıb. Azərbaycanın 44 gündə həyata keçirdiyi uğurlu əməliyyatlar dünya tarixinə yenilik kimi düşüb. Döyüş meydanında belə miqyasda Türkiyədə yaradılmış “Bayraktar TB2”, İsrail istehsalı olan “HAROP” kamikadze dronlarından istifadə canlı qüvvə itkisinin də minimuma endirilməsinə şərait yaradıb. Bu gün fərəhlə qeyd edirəm ki, festivalın sərgilərində ölkəmizin yerli istehsalı olan pilotsuz uçuş aparatları da nümayiş etdirilir. Bütün bunları ona görə xatırladıram ki, Azərbaycanın festivalda deməyə sözü, göstərməyə uğuru da az deyil”, – deyə V. Nəzərov bildirdi.

“TEKNOFEST Azərbaycan” festivalının ilk günündə zəngin təəssürat toplamış müsahibimiz xüsusi vurğuladı ki, müxtəlif hava şouları və attraksionların təşkili hər kəsin böyük marağına səbəb olub. Kollec direktoru daha sonra dedi: “Mən bir pedaqoq kimi şadam ki, festival çərçivəsində təşkil edilən sərgidə bizim Təhsil Nazirliyimiz də təmsil olunur. Nazirlik festivalda STEAM layihəsinin təşkilatçılığı ilə şagird və tələbə kateqoriyaları üzrə keçirilən “Baku Skills” müsabiqəsinin final mərhələsi, həmçinin “STEAM Azerbaijan” layihəsi, Azərbaycan Dövlət Neft və Sənaye, Gəncə Dövlət və Naxçıvan universitetlərinin 6 layihəsi, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin fəaliyyətini əks etdirən 3 layihə və materiallarla təmsil olunur. Tərəfdaş qurumların STEAM məzmunlu innovativ məhsul və həllərinin, müxtəlif layihələr çərçivəsində hazırladıqları prototiplərin nümayiş olunması, açıq səma altındakı statik ərazidə isə pilotsuz uçuş aparatları və vertolyotların sərgilənməsi təbii bir ruh yüksəkliyi yaradır”.

Vidadi Nəzərovun fikrincə, bu festival gənclər arasında aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat kimi sahələrin təbliği, bu sahələrdə sahibkarlığın təşviq edilməsi, yarışlar vasitəsilə gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunması ilə diqqətəlayiqdir. Zəngin proqramı olan festivalın uğurla başlandığı kimi, uğurla da başa çatacağına inam böyükdür.

***Hazırladı: Əli NƏCƏFXANLI, “Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 27 may.- S.9.